**Azərbaycan Milli Elmlər Akademiyası ilə**
**Tacikistan Respublikası Elmlər Akademiyası**
**arasında elmi əməkdaşlıq haqqında**

# SAZİŞ

Bundan sonra Tərəflər adlandırılacaq Azərbaycan Milli Elmlər Akademiyası və Tacikistan Respublikası Elmlər Akademiyası,

13 avqust 2007-ci il tarixində Bakı şəhərində imzalanmış Azərbaycan Respublikası Hökuməti və Tacikistan Respublikası Hökuməti arasında elm, texnika və texnologiya sahəsində əməkdaşlıq haqqında Sazişə əsaslanaraq,

Azərbaycan Respublikası və Tacikistan Respublikası arasında elmi əlaqələrin inkişafının zəruriliyini qeyd edərək,

iki ölkə arasında bərabərhüquqlu və qarşılıqlı faydalı əməkdaşlıq çərçivəsində elmi tədqiqatların genişləndirilməsinin, texnologiyaların ötürülməsinin və elmi mübadilələrin vacibliyini nəzərə alaraq və dərk edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

## Maddə 1

Tərəflər milli qanunvericiklərinə uyğun olaraq və öz səlahiyyətləri çərçivəsində birgə elmi-tədqiqatların, həmçinin tədqiqatçıların və nümayəndə heyətlələrinin mübadiləsi, birgə tədqiqat layihələrinin yerinə yetirilməsi, yeni proqramların yaradılmasında qarşılıqlı yardımın göstərilməsi, məlumatların, nəşrlərin və elmi materialların mübadiləsi, konfrans, simpozium, seminar və işçi görüşlərin təşkili sahəsində əməkdaşlıq edəcəklər.

## Maddə 2

Maliyyə resurslarından və praktiki imkanlarından asılı olaraq Tərəflər birgə proqram və tədqiqat layihələri yarada bilər. Layihələrin və proqramların əlaqələndiriciləri müvafiq təşkilatların rəhbərliyinə ildə bir dəfədən az olmayaraq işin gedişatı haqqında hesabat verməlidir.

Tərəflərin birgə fəaliyyətinin inkişafı onların birgə maliyyə imkanlarından və ya əlavə maliyyə mənbələrindən asılı olacaqdır.

Konkret proqram layihələri üzrə maliyyə razılığı danışıqlar yolu ilə əldə ediləcəkdir.

## Maddə 3

Tərəflər arasında yazışma rus dilində aparılır.

## Maddə 4

Bu Sazişin müddəalarının tətbiqi və ya təfsiri ilə bağlı yaranmış fikir ayrılıqları danışıqlar və məsləhətləşmələr yolu ilə həll ediləcəkdir.

## Maddə 5

Bu Sazişə Tərəflərin qarşılıqlı razılığı ilə onun ayrılmaz hissəsi olan və bu Sazişin 8-ci maddəsində müəyyən olunmuş qaydada qüvvəyə minən ayrıca protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

## Maddə 6

Bu Sazişin müddəaları Tərəflərin digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə toxunmur.

## Maddə 7

Bu Saziş beş (5) il müddətinə bağlanılır və onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir.

Əgər Tərəflərdən heç biri göstərilmiş müddətin bitməsinə 6 ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə diplomatik kanallar vasitəsilə məlumat verməsə, bu Saziş avtomatik olaraq növbəti beşillik müddətlərə uzadılır.

Bu Saziş Düşənbə şəhərində "16" oktyabr 2014-cü il tarixində iki əsl nüsxədə, Azərbaycan, tacik və rus dillərində imzalanmışdır və bütün mətnlər eyni hüquqi qüvvəyə malikdir. Bu Sazişin müddəalarının təfsirində fikir ayrılıqları yarandığı təqdirdə rus dilində olan mətndən istifadə ediləcəkdir.

| | |
|---|---|
| **Azərbaycan Milli Elmlər Akademiyası adından** | **Tacikistan Respublikası Elmlər Akademiyası adından** |